# Qoca Şərqin nur mənbəyi – Nizami Gəncəvi



Cavanşir Feyziyev

Milli Məclisin deputatı
Fəlsəfə doktoru

(əvvəli ötən sayımızda)

***Nizami böyük vətənpərvər şair idi. Onun əsərlərində öz xalqının keçmişinə, adət və ənənələrinə bağlılıq və böyük ehtiram var. Onun yaradıcılığında qadın obrazı da xüsusi yer tutur. Qadın cəmiyyətin bərabərhüquqlu, yüksək mənəvi keyfiyyətlərə malik olan, cəsur və qorxmaz bir üzvü kimi təsvir edilir. Nizaminin əsərlərində Azərbaycan təbiətinin gözəllikləri də böyük sevgi və məftunluqla təqdim olunur:***

**Bərdə nə gözəldir, necə qəşəngdir,**
**Yazı da, yayı da güldür, çiçəkdir.**

XVII əsrin sonlarından başlayaraq Avropa ictimaiyyəti də Nizaminin ecazkar sənət dünyası ilə tanış olmağa başlayıb. Onun ölməz əsərləri ingilis, alman, fransız, italyan, ispan dillərinə tərcümə edilib və şairin adını Avropa məkanında da məşhurlaşdırıb.

Nizaminin yaratdığı əsərlər həm öz dövründə, həm də özündən sonrakı dövrlərdə böyük təsir gücünə malik olmuşdur. Dünyanın müxtəlif bölgələrində Nizami yaradıcılığının təsiri ilə formalaşan çoxsaylı şairlər vardır. Azərbaycanda, Əfqanıstanda, Gürcüstanda, Hindistanda, İranda, Pakistanda, Tacikistanda, Türkiyədə, Özbəkistanda ədəbiyyatın, mədəniyyətin formalaşmasına Nizami yaradıcılığının ciddi təsiri olmuşdur.

## Nizami Gəncəvi irsinin tədqiqi

***Nizami Gəncəvi haqqında Azərbaycan tədqiqatçılarının əsərlərində ilk məlumata görkəmli alim, tarixçi Abbasqulu ağa Bakıxanovun "Gülüstani-İrəm" əsərində rast gəlirik. O, bu əsərində Nizami yaradıcılığının bir çox vacib məqamlarını açıqlayır. Bir müddət sonra görkəmli ədib, yazıçı, dramaturq Mirzə Fətəli Axundzadə məqalələrinin birində çox geniş olmasa da, qısa bir məzmunda Nizami Gəncəvi yaradıcılığı haqqında məlumat verir.***

Nizami haqqında ilk ən geniş araşdırmanın müəllifi isə görkəmli ədəbiyyatşünas alim Firidun bəy Köçərlidir. F.Köçərli 1903-cü ildə yazdığı "Azərbaycan ədəbiyyatı tarixi" kitabının 1908-ci ildəki nəşrində Nizami haqqında oxucuları ətraflı bilgiləndirib.

1909-cu ildə M.Axundzadə Gəncədə Nizami haqqında kitab çap etdirir.

Tədqiqat xarakterli bütün bu yazılar həmin dövrlərdə böyük Nizami dühasını geniş aça bilməsə də, bu şəxsiyyətin zəngin yaradıcılığının öyrənilməsi sahəsində atılan ilk uğurlu addımlar idi.

Təbiidir ki, fars alimləri də Nizami irsinə böyük maraq göstəriblər. Onun əsərlərinin toplanılmasında, araşdırılmasında İran alimlərinin də xüsusi rolu vardır. İlk dəfə Nizami Gəncəvi əsərlərinin mükəmməl elmi-tənqidi mətnlərini hazırlayıb nəşr etdirən V. Dəstgirdi olub. Digər İran alimi Səid Nəfisi də Nizami əsərlərinin tədqiqində önəmli rol oynayıb. Hələ o zamanlarda Avropa və Rusiyanın şərqşünas alimlərindən də Nizami yaradıcılığına böyük diqqət göstərən, araşdırmalar aparan tədqiqatçılar olmuşdur.



Sovet Azərbaycanında Nizami sənətinin öyrənilməsinə, tədqiqinə, təbliğinə 1920-ci illərdən başlanılıb və bu proses 1930-cu illərdə daha da sürətlənmişdi. Bu da 1939-cu ildə Nizami Gəncəvinin anadan olmasının 800 illik yubileyi ərəfəsində geniş tədbirlərin keçirilməsinə hazırlıq işləri ilə bağlı idi. Lakin 2-ci dünya müharibəsinin başlaması bu tədbirlərin təxirə salınmasına səbəb oldu və Nizaminin yubileyi yalnız müharibədən sonra, 1947-ci ildə keçirildi.

Həmin dövrdə Nizami Gəncəvi haqqında yazılan ilk məqalələrdən birinin müəllifi Yevgeni Eduardoviç Bertels oldu. Onun yazdığı "Azərbaycanın dahi şairi Nizami" məqaləsi 1939-cu ildə "Kommunist" qəzetində çap edildi. Y.E.Bertelsin məqaləsində Nizaminin fars dilində əsərlər yazmasına və bunun başlıca səbəblərinə də toxunulurdu. Qeyd olunurdu ki, o dövrün ənənələrinə görə, şeir dili fars dili idi və yaradıcı sənətkarlar da əsərlərini bu dildə yazırdılar. Nizaminin yaşadığı dövrdə böyük bir coğrafi məkanda ? Hindistandan Aralıq dənizinə qədər olan geniş bir məkanda şairlər əsərlərini fars dilində yazmağa məcbur idilər. Nizaminin də farsca yazmasının səbəbi məhz həmin dövr poeziyasının aparıcı tendensiyaları ilə bağlı idi.

***Elə həmin dövrdə 1939-1947-ci illərdə tanınmış Azərbaycan tədqiqatçısı Həmid Araslı Nizami yaradıcılığının daha dərin çalarlarını izah edib, elmi ictimaiyyətə çatdıran bir sıra məqalələrini çap etdirdi: 1) "Azərbaycan poeziyasının parlaq qüvvəsi ? Nizami Gəncəvi" (1939); "Ölməz dastan" (1947); "Cahanşümul sənətkar" (1947); "Qəlb şairi" (1947). Bu məqalələr Nizami dövrünün və yaradıcı şəxsiyyət kimi onun böyüdüyü və yetişdiyi mühitin öyrənilməsi baxımından çox əhəmiyyətli idi. Elə həmin illərdə Azərbaycan heykəltaraşlıq məktəbinin banisi Fuad Abdurahmanovun Nizami Gəncəvi obrazının yaradılması istiqamətində apardığı axtarışlar öz nəticəsini verdi və dahi şairin obrazı dahi heykəltaraşın yaratdığı monumental Nizami heykəlində canlandı.***

> ***Elə həmin dövrdə 1939-1947-ci illərdə tanınmış Azərbaycan tədqiqatçısı Həmid Araslı Nizami yaradıcılığının daha dərin çalarlarını izah edib, elmi ictimaiyyətə çatdıran bir sıra məqalələrini çap etdirdi: 1) "Azərbaycan poeziyasının parlaq qüvvəsi ? Nizami Gəncəvi" (1939); "Ölməz dastan" (1947); "Cahanşümul sənətkar" (1947); "Qəlb şairi" (1947). Bu məqalələr Nizami dövrünün və yaradıcı şəxsiyyət kimi onun böyüdüyü və yetişdiyi mühitin öyrənilməsi baxımından çox əhəmiyyətli idi. Elə həmin illərdə Azərbaycan heykəltaraşlıq məktəbinin banisi Fuad Abdurahmanovun Nizami Gəncəvi obrazının yaradılması istiqamətində apardığı axtarışlar öz nəticəsini verdi...***

1939-cu ildə tanınmış ədəbiyyatşünas alim Mikayıl Rəfili çap etdirdiyi "Azərbaycan incəsənətinin çox qiymətli əsəri" məqaləsində Nizaminin "İsgəndərnamə" poemasının Leninqradda (indiki Sankt-Peterburqda) yeni tapılan əlyazması haqqında məlumat vermişdi. Bu faktın özü məhz həmin illərdə Nizami irsinin araşdırılması sahəsində çoxsaylı faydalı işlərin görüldüyünü göstərirdi.

Sonrakı illərdə də Mirzə İbrahimov, akademik Heydər Hüseynov, Mir Cəlal Paşayev, Cəfər Hacıyev (Xəndan), Məmməd Mübariz, Mirzəağa Quluzadə, Məmmədağa Sultanov, Rüstəm Əliyev, Azadə Rüstəmova, Nüşabə Araslı, Xəlil Yusifli kimi yazıçı və tədqiqatçılarımız Nizami irsinin öyrənilməsində əhəmiyyətli araşdırmalar apardılar. Bu araşdırmalarda Nizaminin "Xəmsə"yə qədərki yaradıcılığı, o cümlədən, onun yaratdığı divan haqqında məlumatlar elmi ictimaiyyətin diqqətinə çatdırıldı.

Zaman keçdikcə Azərbaycan cəmiyyətində Nizami Gəncəvi şəxsiyyətinə maraq artırdı. Yazıçı və şairlərimiz Nizaminin əsərlərini daha dərindən öyrənir, onun ideyalarından faydalanır, ona istinad edərək, bədii yazılar ortalığa qoymağa başlayırdılar.

***1941-ci ildə görkəmli Azərbaycan şairi Səməd Vurğun Nizaminin "Xosrov və Şirin" poemasının motivləri əsasında "Fərhad və Şirin" pyesini yazdı və əsər teatrda tamaşaya qoyuldu.***

***Tanınmış şair və yazıçı Abdulla Şaiq isə Nizaminin "Yeddi gözəl" poemasından qaynaqlanan "Fitnə" pyesini yazdı. A. Şaiqin Nizaminin "İskəndərnamə" əsərindən ilhamlanaraq qələmə aldığı digər pyesi isə "Nüşabə" adlanırdı.***

Böyük yazıçımız Mir Cəlal Paşayev də Nizami Gəncəvinin zəngin irsinə müraciət etmişdi. Onun yazdığı "Xeyir və Şər", "Kərpickəsən" hekayələri böyük Nizaminin "Sirlər xəzinəsindən", "Fitnə" hekayəsinin mövzusu isə "Yeddi gözəl" poemasından qaynaqlanırdı.

Digər Azərbaycan yazıçı və şairlərinin də yaradıcılığında Nizami irsinin təsirlərini tapmaq mümkündür. Bu faktlar Nizami Gəncəvi əsərlərinin ölməzliyini, gücünü, qüdrətini, bütün dövrlər və yaradıcı şəxsiyyətlər üçün ilham qaynağı olduğunu sübut etməkdədir.

Nizaminin yaradıcılığı Azərbaycanın musiqi sənətinə də təsirsiz ötüşməyib. Görkəmli musiqi xadimlərimiz dönə-dönə onun yaradıcılığına üz tutub və maraqlı musiqi əsərləri yaradıblar. Dahi bəstəkarımız, Azərbaycan operasının banisi Üzeyir bəy Hacıbəyli Nizaminin "Sənsiz" qəzəli əsasında təkrarsız romans yazmışdı və bu romans görkəmli müğənnilərimiz Bülbül və daha sonra isə Müslüm Maqomayev tərəfindən yüksək peşəkarlıqla ifa olunub.

Tanınmış bəstəkarlarımız Qara Qarayev, Fikrət Əmirov, Tofiq Quliyev, Cahangir Cahangirov, Süleyman Ələsgərov, Şəfiqə Axundova, Ağabacı Rzayeva, Qəmbər Hüseynli və digərləri Nizaminin qəzəlləri əsasında bir sıra ölməz musiqi əsərləri bəstələyiblər. Böyük dirijor Niyazinin "Xosrov və Şirin" operasını yazması da Nizami yaradıcılığının həmişəyaşarlığına böyük töhfə oldu. Böyük bəstəkarımız Qara Qarayevin yazdığı "Leyli və Məcnun", "Yeddi gözəl" baletləri milli musiqi xəzinəmizi daha da zənginləşdirdi.

Azərbaycan bəstəkarları Nizami Gəncəvinin özünə də musiqi əsərləri ithaf ediblər: Əfrasiyab Bədəlbəyli "Nizami" operasını, Fikrət Əmirov isə "Nizami" baletini yazıb.

Yazıçı və şairlərimiz də Nizami Gəncəvi şəxsiyyətinə biganə qalmayıblar. Tanınmış yazıçı M. S. Ordubadi Nizami haqqında çox dəyərli və bu gün də oxucularda böyük maraq doğuran "Qılınc və qələm" romanını yazmışdı.

***Nizami şəxsiyyətinə böyük diqqət milli kino sənətimizdə də öz əksini tapıb. Nizaminin kino obrazının yaradılması sahəsində ilk addımlar hələ 1950-ci illərdə atılmağa başlamışdı. 1959-cu ildə Azərbaycan kino sənətində yeni bir hadisə baş verdi ? ilk dəfə olaraq Nizami Gəncəvi haqqında qısametrajlı sənədli film çəkildi. Filmin ssenari müəllifi Əhmədağa Qurbanov, rejissoru isə Mikayıl Mikayılov idi.***

1982-ci ildə Nizami haqqında daha bir sanballı filmin çəkilişi baş tutdu. Rəngli və yüksək texniki standartlar əsasında çəkilən bu filmdə Nizami obrazını böyük müğənni Müslüm Maqomayev yaratdı. Filmin rejissoru görkəmli sənətkar Eldar Quliyev idi. Ecazkar səsi ilə dünyanı heyrətə salan M,Maqomayevin Nizami obrazında filmə çəkilməsi böyük şairin ekranlar vasitəsi ilə geniş ictimiyyətə təqdimatının çox təsirli və diqqəti cəlb edən forması idi. Nizami böyüklüyünün M. Maqomayev zirvəsində təqdimatı filmin əhəmiyyətini daha da artırırdı.

Nizami irsinin öyrənilməsinə ən böyük töhfələrdən biri də M.Ə.Rəsulzadənin 1951-ci ildə Ankarada nəşr etdirdiyi "Azərbaycan şairi Nizami" əsəridir. Bu əsər sonradan 1992-ci ildə İstanbulda "Türk Dünyası Araşdırmaları Vəqfi" tərəfindən yenidən nəşr olunmuşdur.

Sovetlər Birliyi dağıldıqdan və 1991-ci ildə Azərbaycanın müstəqilliyi bərpa olunduqdan sonra da Nizami haqqında çoxsaylı dəyərli kitablar nəşr olunub:

*1) V.Arzumanlı, "Nizami Gəncəvinin dünya şöhrəti", B., 1997;*

*2) T.Babayeva, "N.Gəncəvinin ədəbi irsində şəxsiyyət problemi", B., 2000;*

*3) Ə.Əhmədov, "Nizami ? elmşünaslıq", B., 2001;*

*4) T.Kərimli, "Nizami və tarix", B., 2002;*

*5) S.Rzasoy, "Nizami poeziyası: Mif-tarix konteksti", B., 2002;*

*6) E.Əlibəyzadə, "Nizami və tariximiz", B., 2004;*

*7) R.Qeybullayeva və Kristin Van Ruymbeke, "Nizami mədəni irsinin müasir dövrdə inteqrasiyası", B., 2020.*

***2013-cü ildə isə Zəncan Universitetinin professoru, azərbaycanlı alim Hüseyn Türksoyun Misirin Xədəviyyə kitabxanasında Nizami Gəncəviyə aid olduğu iddia edilən azərbaycanca-türkcə divan nüsxəsini tapması və onun nəşr edilməsi böyük şairin ədəbi irsinin öyrənilməsinə əsaslı töhfə oldu.***

***Nizami irsinin tədqiqi və təqdimatları davam edir və bu heç zaman dayandırılmayacaq. Çünki dahi Azərbaycan şairinin yaradıcılığında yer alan əsas ideyalar heç zaman köhnəlməyən və getdikcə daha çox insanlığın diqqət mərkəzinə gətirilən universal dəyərlərdən ibarətdir. Bu dəyərlər Yer üzündə bərqərar olub möhkəmləndikcə görkəmli mütəfəkkirin özü də universal dəyər statusu qazanır və təkcə xalqımızın yox, bəşəriyyətin düha sahibinə çevrilir.***